*Dünyada bütün baş verənlərin*
*iki adı var: Xeyir və Şər.*

# ZƏRDÜŞT PEYĞƏMBƏR

*Mənzum tarixi faciə*



## İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| 1. Z ə r d ü ş t p e y ğ ə m b ə r | |
| 2. P o r u ç i s t a | – onun qızı |
| 3. M e d y u m a h | – onun əmisi oğlu |
| 4. A r i a b a r z a n | – Qərbi İran və Kiçik Midiya hökmdarı |
| 5. V ə z i r | – onun vəziri |
| 6. K a h i n . | |
| 7. R ə m m a l | |
| 8. B a n u | – Ariabarzanın arvadı |
| 9. B ö y ü k M ü d r i k | – Zərdüşt peyğəmbərin uşaqlıq dostu |
| 10. V i ş t ə a s p | – Şərqi İran hökmdarı |
| 11. C ə m a s p | – onun vəziri |
| 12. X u t a o s ə | – şahın arvadı |
| 13. H u m a y a | – onun qızı |
| 14. Ə h r i m a n | – şər ruh |
| 15. B u r a k R u k r ə ş | – Hun əsgəri |
| 16. B i r i n c i M u ğ | |
| 17. İ k i n c i M u ğ | |

18. Təlxək, qulam, karvanbaşı, cəllad, sərəsgər, əsgərlər, kor dilənçi, musiqiçilər.

## 1-ci səhnə

Uca dağ başında Zərdüştün kahası. Kaha həsirlə döşənmiş, ortada ağacdan düzəldilmiş sadə stol və stul qoyulmuşdur. Bir az kənarda ağacdan çarpayı görünür. Zərdüşt ağ qiyafədə çox uzaqlardan görünən Vorukəş dənizinə baxaraq xəyala dalmışdır. Birdən qapıda Böyük Müdrik adı ilə tanınan gənclik dostu görünür.

Böyük Müdrik

Günaydın, qardaşım!

Zərdüşt

Günaydın!

*(Onlar bərk-bərk qucaqlaşıb öpüşürlər.)*

Zərdüşt

*(Ona yer göstərərək)*

Buyurun, qardaşım, oturun.
Yəqin yorulmusan, yol gəlmisən sən.

Böyük Müdrik

Dizlərim ağrayır, düzünü bilsən.

Zərdüşt

Dizin ağrayırsa, sənsən günahkar.
Yəqin incitməyib onu saraylar.

Böyük Müdrik

Dizim ağramayıb, ağrayıb başım,
Bəzən ürəyimə axıb göz yaşım.

Zərdüşt

Ürəyin bir dərya deyilsə əgər,
Bil lilli sulardan o da lillənər.

B ö y ü k   M ü d r i k

Acı olubsa da bəzən bu dövran
Məni ucalara qaldırıb, inan.

Z ə r d ü ş t

Ucalıq deyirsən uca kürsüyə?

B ö y ü k   M ü d r i k

Məni anlamırsan bilmirəm niyə?
Mən gündə özümü on dəfə keçdim.
Özümlə vuruşdum gündə on dəfə,
Özümlə barışdım gündə on dəfə.

Z ə r d ü ş t

*(Bir qədər kəskin)*

Yaxşı yatırsanmı?

B ö y ü k   M ü d r i k

*(Təəccüblə)*

Bəli, bunda nə var?

Z ə r d ü ş t

Çünki yaxşı adın və xəzinən var.

B ö y ü k   M ü d r i k

*(Kəskin)*

Bir gündə tapmışam on həqiqəti.

Z ə r d ü ş t

Müdrikə onu yox, biri gərəkdir.

B ö y ü k   M ü d r i k

Xeyirxah olmuşam həmişə, hər vaxt
Onunçün üzümə gülüb tale, bəxt.

Z ə r d ü ş t

Zərəri xeyirxahların
Ən böyük zərərdir.

B ö y ü k   M ü d r i k

*(Bir qədər qeyzlə)*

Çox qəribədir!
Xeyirxah şərdirsə, bəs, şər nədir nə?!
Bəs, qiyamət nədir, məhşər nədir nə?!

Z ə r d ü ş t

Düz sözdən qaçırsan sən ay biçarə.
Bax, belə çevrilir xeyir də şərə.

B ö y ü k   M ü d r i k

Sənin dediklərin qərəzdir qərəz!
Xalq məni tanıyır, bu sözlər əbəs!

Z ə r d ü ş t

Bəs, sən özün necə?
Bu qədər vurulmaq özünə neyçün?
Vuruşdun, çalışdın bir şöhrət üçün?

B ö y ü k   M ü d r i k

Şöhrət də qazancdır, zəhmət çəkməsən.
Qazana bilməzsən, gərək biləsən.

Z ə r d ü ş t

Bir dönük, vəfasız qadındı şöhrət,
Ən çirkin kəsə də satıldı şöhrət.

B ö y ü k   M ü d r i k

On illər yaşadın kahada yalnız.
Sənə yabançıdır öz əxlaqımız.
Düşmənə dost dedin, dostuna düşmən.
Gec-tez sən özünü məhv edəcəksən.

Z ə r d ü ş t

Səninçün əxlaq da özünə xidmət!
Səninçün «xalq, xalq» da özünə xidmət!
Bil ki, yaxşı dostun yaxşı düşmənin!
Bil ki, yaxşı düşmən dostundur sənin!

B ö y ü k   M ü d r i k

İlanın qarası qaradır, qara!
İlanın ağına lənət dedilər!

Z ə r d ü ş t

Sənin düşündüyün bir yanlış ancaq
Yoxmu ürəyində sevgidən əsər?

B ö y ü k   M ü d r i k

Sevgi etiqadımdır!
Məhəbbət həyatımdır!
Sən Hörmüz dediyin heçliyə
İnanmıram mən!

Z ə r d ü ş t

Çünki xəbərin yox sənin özündən!
Çünki ruhundadır qara duman, çən!

B ö y ü k   M ü d r i k

Zərdüşt, uydurduğun bu xülya ilə!
Atırsan bütlərə daş bilə-bilə!
İttiham edirsən məni, bir düşün!
Sonu fəlakətdir gördüyün işin!

Z ə r d ü ş t

Məni dərk etməkçün dərk et, özünü,
Özünlə döyüşdə bərkit özünü.
Üz döndər özündən sən zaman-zaman,
Qəlbini, ruhunu dəyişdir tamam.

B ö y ü k   M ü d r i k

Qəlbimi dəyişim, buna lüzum yox.
Geriyə dönərmi atılan bir ox?

Z ə r d ü ş t

Aç öz ürəyini nurlu günəşə.
Aç öz ürəyini oda, atəşə.
Ay işığı, ayna sular yusun onu.
Dağ küləyi, xoş arzular yusun onu.

Böyük Müdrik

*(Onun sözünü kəsərək, qeyzlə)*

Xalq sənə iblis deyir, səndən qorxanlar da var!
Sənə kim inanar?

Zərdüşt

*(Kəskin)*

Hər şey tərsinə, əfsus!
İblisə Hörmüz dedilər, Hörmüzə İblis!

Böyük Müdrik

*(Mütəəssir olaraq, təkidlə)*

Gəl enək bu dağdan, gedək mənimlə!

Zərdüşt

*(Əsəbi)*

Gedim səninlə!
On il bu ucalıqda dayandım ki!
Haqqa qovuşum, riyanı atım!
On, ruhumu, ürəyimi yudum ki!
Çirkaba batım?!!

Böyük Müdrik

Çirkaba batmamaq... bu mümkün deyil!

Zərdüşt

Sən Hörmüzü tanı, Hörmüzə əyil!
Odur kainatda sahibi qüdrət!
Ondadır həqiqət, böyük ədalət!

Böyük Müdrik

Özümə vermişəm bu sualı çox!
Ölüm nə, ruh nədir? – Bir cavabı yox!

Zərdüşt

Zaman çevrəsində ruh qayıdandı,
Ölüm təbilçisi bir Əhrimandı.
Biz onu məhv etsək, ölüm də ölər,
İnsanın həyatı əbədi olar.

Böyük Müdrik

Fatehlər axtardı ölümə çarə,
Tapa bilmədilər.

Zərdüşt

Əməllərində idi
Çünki ölüm, riya, şər.

Böyük Müdrik

*(Həyəcanla)*

And olsun Hörmüzə şər ölməlidir!
Qara cəhənnəmə gömülməlidir!

Zərdüşt məmnuniyyətlə ona baxır və onlar qucaqlaşırlar.

## 2-ci səhnə

Şəhər meydanı. Xalqın «Zərdüştün meymunu» adlandırdığı Təlxək böyük daşın üstünə çıxmış və başına yığışan camaata böyük ustalıqla Zərdüştü yamsılayır.

Təlxək

*(Ciddi görkəm alaraq)*

Kimdir sənin düşmənin?
Sən özün!..
Bəs, dostun kimdir sənin?..
Sən özün!

Yerdən səs

Bunlar köhnə söhbətdir,
Təzəsini sən danış.

Təlxək

*(İbarə ilə)*

Deyirlər Zərdüşt bu qış,
Bir qarıya tuş gəlib,
Qarııı ona xooş gəliiib!

(Meydanda gülüşmə qopur.)

Y e r d ə n   s ə s

Ha, ha, ha ha ha, nə əcəb!
Zərdüştə xoş gəlmək,
Qurda yem olmaq kimidir!

(Təkrar gülüşmə qopur.)

T ə l x ə k

Bəs, necə, bəs necə! Hi, hi, hi!
Qarı şorgöz imiş! Hi, hi, hi!
İstəyib kam alsın
Bu bakir kişidən, hi, hi, hi!

(Təkrar gülüşmə qopur.)

Y e r d ə n   s ə s

Əhsən qarı nənə, əhsən!

T ə l x ə k

Qarı deyib: de biz kimik, anlat bizə
Mən aşiqəm müdrik sözə, hi, hi, hi!!!

(Gülüşmə qopur.)

Zərdüşt deyib: hər qadın bir tapmaca!
Görək onu kim açar!

Y e r d ə n   s ə s

Yaman deyib zalım oğlu!
(Təkrar gülüşmə qopur.)

T ə l x ə k

Hi, hi, hi, hi, hi, hi!
Bilirsiz, nə deyib qarı?!

Y e r d ə n   s ə s l ə r

Nə deyib, nə?

T ə l x ə k

Qarı deyib:
Qızıldan darvazam bağlı,
İllər boyu mən səni gözləmişəm.
Bu canı da səninçün bəsləmişəm, hi, hi, hi!

(Meydan əhli gülür.)

T ə l x ə k

Deyirlər ki, o vaxtdan,
Zərdüşt düşüb itkin, hi, hi, hi!
Yerini bilən də yox, hi, hi, hi!

(Birdən camaat aralanır və Zərdüşt iti addımlarla təlxəyə tərəf gəlir. Təlxək onu görərək daşın üstündən yerə hoppanır və Zərdüştə tərəf iki-üç addım atır.)

T ə l x ə k

*(Zərdüştə təzim edərək)*

Eh, Zərdüşt, bizim bu böyük şəhərdə,
Sən nə axtarırsan, bir söylə bilək?
Sən müdrik, biz eşşək, hi, hi, hi!

Z ə r d ü ş t

*(Qeyzlə)*

Meydan sənindi, Təlxək!
Dövran sənindi, Təlxək!
Nə qədər Əhriman var!
Cahan sənindi, Təlxək!

T ə l x ə k

Biz təlxəklər azad quşuq,
Dünya müdriklərə zindan, hi, hi, hi!

Z ə r d ü ş t

Ey Təlxək, dediyin bir həqiqətdir
Yox sözündə yalan.

T ə l x ə k

Babam da təlxəkdi, atam da təlxək,
Yalan danışmarıq biz şairlər tək.

(Zərdüşt daşın üstünə çıxaraq bazar əhlinə müraciətlə)

Z ə r d ü ş t

Yalandan doğulub yeni yalanlar.
Yalanlar dünyanı edib tarımar.
Məzdaya tapının,
Odur xilaskarı bütün xilqətin!

M e y d a n d a n  s ə s

Gəmim dəryada batdı,
Məzda köməyə çatdı?
Yox!

Z ə r d ü ş t

Gəmin batıbsa da səbrə ver qərar.
Səbr edən Məzdadan mükafat alar.
Odur yaradanı bu yerin, göyün
Onun qapısını hər zaman döyün.

M e y d a n d a n  s ə s

Məzdaya tapınaq, bəs bütlərimiz?

Z ə r d ü ş t

Onları sındırın birdəfəlik siz!

M e y d a n d a n  s ə s

*(Qəzəblə)*

Divanə olmasaydın!
Səni öldürərdim bu xəncərimlə!

T ə l x ə k

Divanə, hi, hi, hi, hi, səfil, hi, hi, hi!
Sözünü hədər verdin yelə, hi, hi, hi!

(Hamı dağılışır. Təlxək gedir. Zərdüştün yanında
bir kor dilənçi qalır.)

Z ə r d ü ş t

*(Öz-özünə)*

Mənim sözüm bu qulaqlar üçün deyil!
Mənə gözü açıq sirdaşlar gərək!
Ey dilənçi, gəl gedək!

(Zərdüşt dilənçinin qolundan tutaraq meydandan uzaqlaşır.)

## 3 - c ü  s ə h n ə

Kiçik Midya. Ariabarzanın sarayı. Şah taxtda oturmuş, əyan-əşrəf ayaq üstə dayanmışlar. Sarayın rəmmalı içəri daxil olaraq şahın qarşısında diz çökür və başını qaldırmadan.

R ə m m a l

*(Həyəcanla)*

Şahım fəlakət!
Təhlükədə məmləkət!

A r i a b a r z a n

*(Həyəcanla)*

Nə olmuş, rəmmal?!

R ə m m a l

Dilim olsun lal!
Deyirlər Zərdüşt
Vorukəş dəryasına girərək!
Püskürən cəhənnəm oduyla
Etmiş cəng!

A r i a b a r z a n

Rəmmal, danışma cəfəng!
O odla döyüşən olmayıb hələ!
Zərdüşt də dönübdür yəqin ki, külə!

R ə m m a l

Yox şahım, o sağ qayıtmış!
Yer üzünü alar qış!

Biz qurbanlar kəsməsək
Bütün büt tanrılara!

A r i a b a r z a n

*(Qeyzlə)*

Vəzir!

V ə z i r

Bəli, fərmandarım!

A r i a b a r z a n

Onu çəkdirin dara!

V ə z i r

Zərdüşt laməkan, şahım.
Zərdüşt bir şeytan, şahım.
Deyirlər ruhunu satıb İblisə,
O vaxtdan görməyib onu bir kimsə.

A r i a b a r z a n

O, bir cadugərmi?

V ə z i r

Yox, şahım, yox!
Zərdüşt əqli azmış bir sərsəm, dəli.

(Baş kahin daxil olur.)

K a h i n

*(Baş əyərək, təlaşla)*

Vay, hökmdarım, vay!
Göydən başımıza daş yağacaqdır!
Sənin torpağında qan axacaqdır!

A r i a b a r z a n

Kahin, nə günahın sahibiyik biz?

K a h i n

Günahkar Zərdüşt şübhəsiz!
Deyib ki, sındırın büt tanrıları!

A r i a b a r z a n

Səbəb nə, özümü olacaq tanrı?

K a h i n

Deyir bir tanrı var, o da ki, Məzda!
Onun hökmündə dünya!

A r i a b a r z a n

*(Qəzəblə)*

Vəzir, o dinsizi tapıb öldürün!
Ondan sonra qəlbim olacaq aram!

(Əhriman Zərdüşt qiyafəsində daxil olur.)

Ə h r i m a n

(Şaha baş əyərək)

Böyük hökmdara böyük ehtiram.

A r i a b a r z a n

*(Təəccüblə)*

Bu kimdir?
Kim səni qoydu bura?

Ə h r i m a n

Tanrı xəbərçisi Zərdüşt mənəm mən!
Hakimi qüdrətdir yalnız Əhriman!

A r i a b a r z a n

Demək, Zərdüşt sənsən, tanrın Əhriman?
Demək, hökmünüzdə zəmin, asiman?

Ə h r i m a n

Ancaq Əhrimana tapınar bəşər!
Yalnız bir qüdrət var, o da riya, şər!

A r i a b a r z a n

Əhriman yoxluqdur, ey qafil kölə!

Ə h r i m a n

Göylərin üstündən Əhriman gülər!
Yerlərin altından Əhriman gülər!
Əhriman önündə sarsılmadı kim?
Əhriman həyatdır, Əhriman ölüm!

A r i a b a r z a n

Sənin dediklərin saxta bir yalan!
Dilinin altında zəhərli ilan!

Ə h r i m a n

Kim şükr etdi tanrıya,
Onun gözünü oydu.
Dünya əyribel dəvə,
Düzü yollarda qoydu.

A r i a b a r z a n

Ey rəzil, şər atdın tanrılara sən!
Qurtarsın Əhriman səni ölümdən!

Ə h r i m a n

Tələsib tez verdin qətlimə fərman!
Gördünmü sən oldun özün Əhriman!

A r i a b a r z a n

*(Bağıraraq)*

Cəllad!!!

(Cəllad içəri daxil olur.)

C ə l l a d

*(Təzim edərək)*

Bəli, şahım!

A r i a b a r z a n

Bunun boynunu vur, bir an durmadan!
Başını assınlar baş darvazadan!

(Cəllad və iki sərbaz Əhrimanın qolundan tutub aparırkən)

Ə h r i m a n

Ey şah, sən cəllad!
Peşiman olarsan bir vaxt!

(Sərbazlar Əhrimanı aparırlar.)

A r i a b a r z a n

Gördünüz, gördünüz bir sərsəm kölə!
Dilini bir anlıq kəsmədi belə!

K a h i n

Ey şahım inan!
Məmləkət qurtardı böyük bəladan!

(Cəllad qəflətən içəri daxil olur və təzim edərək)

C ə l l a d

*(Təlaş içində)*

Şahım, o qeyb oldu lap birdən birə!

A r i a b a r z a n

*(Təlaş içində)*

Necə, necə, necə!!!

## 4 - c ü s ə h n ə

Zərdüşt Əlon dağında öz müridləri arasında. Otaq halına salınmış böyük bir mağara. Zərdüşt başda, müridləri ətrafında dövrə vuraraq oturmuşlar.

Z ə r d ü ş t

Mənim övladlarım,
Qəlbimi, ruhumu mən verdim sizə.

Özüm də heyranam iradənizə,
Lakin tərk edirəm sizi bu gündən.

(Hamı heyrət içində ona baxır.)

B i r i n c i   M u ğ

*(Həyəcanla)*

Anlamadım mən!
Bizi başsız qoyub gedirsən hara?!
Sənsən işıq saçan qaranlıqlara!

Z ə r d ü ş t

Məni uca tutsanız, yıxılaram ucadan.
Məndən üz döndərsəniz, doğularam təzədən.
Sizin varlığınızda.

B i r i n c i   M u ğ

Göylərin sahibi o böyük Məzda!
Yol verməz gedəsən!

Z ə r d ü ş t

Bir yerdə sayanlar ölüdür ölü.
Səfvinə nifrət edənlər,
Özünə lənət deyənlər,
Doğuldu təzədən.
Budur Məzdanın hökmü!

B i r i n c i   M u ğ

Ey mürşidimiz, ey pirimiz!
Bizim ki, hər birimiz!
Sənin fərmanında yalnız!

Z ə r d ü ş t

Əfsus, çox əfsus!
Labud bu hicran!
Çünki qaranlıqda cahan,
Xilqət qafil, xilqət nadan!

İ k i n c i   M u ğ

Sən günəş, biz zərrə!
Dünya uçrum bir dərə!

Z ə r d ü ş t

Uçrumlar üstündə körpüdür insan,
Bir zərrə nur güclü yüz qaranlıqdan.

B i r i n c i   M u ğ

Biz sənin pərvanən,
Şübhəsiz Əhriman,
Məzdanın hökmüylə,
Məhv olacaqdır.
Həyatdan yaxşılar kam alacaqdır.

Z ə r d ü ş t

Hər bir yaxşılıqda Məzda ruhu var.
Yaxşını yaşadar yalnız yaxşılar.

İ k i n c i   M u ğ

(Bir naməlum adamı içəri gətirir. Hamı təəccüblə bu adama baxır.)

Z ə r d ü ş t

Bu kimdir?

İ k i n c i   M u ğ

O, bizi köməyə hey çağırırdı,
Səsinin fəryadı bağrımı yardı.

Z ə r d ü ş t

Ey qonaq, bu kəslər yabançı sənə.
Sən şər təmsilçisi, bu bəlli mənə.
Bizləri aldatmaq, budur istəyin,
Burada iş görməz riyan, kələyin.

Ə h r i m a n

Kahinin qibləsi yalan.
Hakimin səcdəsi yalan.

Həqiqət şirin bir xülya.
Həqiqət dadlı bir röya.

Z ə r d ü ş t

Bil, ey rəzil!
Məkrli ürəklər yalana mənzil!

Ə h r i m a n

Həqiqət bağıran qəhrəmanların!
Sonu dar ağacı, ya qara zindan!

Z ə r d ü ş t

Haqqa qovuşanlar!
Ölümdən qorxmaz, ey cahil insan!

Ə h r i m a n

Ha, ha, ha, ha, mən cahil!
Ha, ha, ha, ha, mən rəzil!
Sus, Zərdüşt, sus!
Cahillik yalnız sizlərə məxsus!
Rəzillik yalnız sizlərə məxsus!
Mənə tapınırkan məni dandınız!
Məzdanın eşqiylə alovlandınız!

Z ə r d ü ş t

Aha, sən Əhriman!
Zülmətlər sultanı, işığa düşmən!

Ə h r i m a n

Mən bir bəşər tanrısıyam!

Z ə r d ü ş t

Milyon ildir ki, bəşər!
Əzablarda inildər!
Məzda nuruyla, ancaq!
Nicatını tapacaq!

Ə h r i m a n

Ha, ha, ha, ha, hədərdir, hədər!
Bu sərsəm düşüncələr!
Nə qədər var simü-zər!
Mənə tapınar bəşər!

Z ə r d ü ş t

Sən bir pislik kimi məhv olacaqsan!

Ə h r i m a n

Ha, ha, ha, ha, ha!
Yoxsa, bu dünyada sən qalacaqsan?!
Anlamadınmı, sən bir insan!
Yüz il də yaşasan,
Mənim qüdrətimlə, ölümə məhkumsan!

Z ə r d ü ş t

Ölüm cismanidir, ruha ölüm yox!

Ə h r i m a n

Ax Zərdüşt, ax Zərdüşt!
Məni güldürdün çox!
Ancaq mən düşündüm dərindən dərin!
Sənin ucalarda olmalı yerin!

Z ə r d ü ş t

Sənin ucalığın yalnız zülmət!
Sənin ucalığın hiylə, ədavət!

Ə h r i m a n

Tapın sən mənə!
Dünyanın sirrini açaram sənə!

Z ə r d ü ş t

Mənim tanıdığım, yalnız Məzda!
O, böyük məhəbbət, o böyük zəka!
Göstərir yolunu möcüzələrin!

Ə h r i m a n

*(Kinayə və ikrahla)*

Afərin, Zərdüşt, afərin!
Hamının varlığında mən varam!
Səni də, səni də sındıraram!

Z ə r d ü ş t

Sən yoxluqsan, sən divlər şahı!
Səni məhv edəcək xeyir Allahı!
Pislik ölən zaman sən də ölərsən!

Ə h r i m a n

*(Çaşqın)*

Ha, ha, ha, ha!
Zərdüşt mən!!!
Kəsildim sənə düşmən!!!

(Əhriman qapıda yox olur.)

5 - c i   s ə h n ə

Ariabarzanın sarayı. Günəşin batmasına az qalmışdır.
Şah baş hərəmi ilə söhbət edir.

A r i a b a r z a n

Nə olub, gəminmi batıb dəryada?
Qorxmusan yoxsa, röyada?

B a n u

Nə röya, hansı röya, sən!
Onu çoxdan mənə haram etmisən!

A r i a b a r z a n

Yenə də başladın, Vavilon qızı.
Sənsən bu sarayın parlaq ulduzu.
Bilirsən o biri hərəmlər
Yalnız sənə nökər.

B a n u

*(Qeyzlə)*

Yenə yalan deyib edirsən günah!
Nökərlə eyş-işrət keçirirsən şah!

A r i a b a r z a n

Ey Vavilon qızı, nədir bu tənən?
Hər kəsdən yuxarı sənin mərtəbən.

B a n u

Mərtəbəm yuxarı olsaydı əgər,
Atamın zəhməti getməzdi hədər.

A r i a b a r z a n

*(Hiddətlənərək)*

Vavilon şahının şanı, şöhrəti!
Mənim qılıncıma borcludur bəlkə?!

B a n u

Sənin məmləkətin kiçik məmləkət!
Ölkən barmaq boyda kiçik bir ölkə!

A r i a b a r z a n

Ey qadın, iddian dağlardan böyük!
Babil şahlığı da çiynimdə bir yük!

B a n u

*(Hiddətlə)*

Fələyin çarxı ki, fırlanır belə!
Sənin də külünü verəcək yelə!

A r i a b a r z a n

Viranə axtaran bir bayquşmusan?
Bu gözəl saraya gəlib düşmüsən!

B a n u

Viranə bayquşu oğulsuz ana!
Üşüyər ürəyi, yüz atəş yana!

A r i a b a r z a n

Bu taleyin işi, məndə nə günah!
Sənə övlad payı vermədi Allah!

B a n u

Bir çarə etmədin, sən ey hökmdar!
Dəvəçi qızından çünki oğlun var!

A r i a b a r z a n

Onun da başını qılıncla kəssəm?!
Ürəyin soyuyarmı?!

B a n u

Beylə demədim mən.
Mənə çarə etsə bişək.
Yalnız Zərdüşt edəcək!

A r i a b a r z a n

Zərdüşt bir cadugər, yeri laməkan.
Mən onun qətlinə vermişəm fərman!

B a n u

Dəyiş fərmanını, əfv et sən onu.
O elmin Loğmanı, elmin Fironu.

B a n u

Lap qoy Loğman olsun, bir düşün,
Dünyanı baş-ayaq edir o məlun.

B a n u

Bir əlac eyləsin mənim dərdimə.
Sonra dünya gülər baxarıq kimə.

(Vəzir daxil olur və şaha təzim edir.)

V ə z i r

*(Sevinclə)*

Zərdüşt qolu bağlı hüzurunuzda!
İndi kömək olsun qoy ona Məzda!

A r i a b a r z a n

*(Sevincək)*

Gətirin içəri!
Tonqalda yanacaq o, diri-diri!

(İki sərbaz qolları qandallanmış Zərdüştü içəri gətirirər. Şah, bu hündürboylu, sağlam bədənli, gənc adamı təəccüb, nifrətqarışıq, bir sevinclə başdan ayağadək süzür.)

A r i a b a r z a n

*(Qəzəblə)*

Mənə əyilməyən sər!
Bədənindən üzülər!

V ə z i r

*(Yaltaqlanaraq)*

Kaha adamıdır, saray görməyib.
Sözünü dağlara, daşlara deyib.

(Zərdüşt dinmir.)

A r i a b a r z a n

*(Bağıraraq)*

Mənim düşmənimdir, o ölməlidir!
Qara torpaqlara gömülməlidir!

Z ə r d ü ş t

Əbədi həqiqət, yalnız Məzda!
Onun əmrindədir hər şey dünyada!
Nə ölüm kabusu məni qorxudur!
Ruhuma can verən Məzda ruhudur!

A r i a b a r z a n

Sən xalqı azdırdın doğru yolundan!
Bütün dediklərin bir xülya, yalan!

Z ə r d ü ş t

*(Kəskin)*

Mən tanrı elçisi, haqqın səsiyəm!
Asiman-zəminin gur nəğməsiyəm!

Göylərin də sirri bəllidir mənə!
Yerlərin də sirri bəllidir mənə!

V ə z i r

*(Kəskin)*

Sus, məlun, sus!
Tanrı elçisi, yalnız şahımız!

B a n u

Ey şah, mərhəmətin qapısını aç!
Zərdüşt qoy eyləsin dərdimə əlac!
İndi mənəm ona daha çox möhtac!

A r i a b a r z a n

*(Hiddətlə)*

Banu, bağışlasam mən bu şeytanı!
Kahinlər, möbidlər qalxar üstümə!
Bütün bu məmləkət durar qəsdimə!

B a n u

*(Qəzəblə)*

Nifrət sənin taxtına!
Lənət sənin tacına!

(Banu iti addımlarla otağı tərk edir.)

Vəzir
Hökmdar versəydi bir qədər möhlət,
Bu iblis xanıma edərdi xidmət.

Z ə r d ü ş t

*(Şaha işarə edərək)*

O əllər dilimi üzməyə hazır,
O əllər başımı kəsməyə hazır.
Nurdan nur doğacaq, zülmətdən zülmət.
Əsla Ahurəya etməm xəyanət.
Çünki onunla haqq!

A r i a b a r z a n

Zərdüşt, çəkim sənə mən eylə bir dağ!
Söhbəti yayılsın məmləkətlərə!

Z ə r d ü ş t

Ən böyük hökmdar, ən böyük məhkum.
Ən böyük məhkumlar, ən böyük hakim.
Sənin də nicatın yox bu cahanda.
Məzdaya tapınan olar amanda.

A r i a b a r z a n

Banuya bir əlac etməsən əgər.
Sabah müridlərin bil, məhv edilər.

Z ə r d ü ş t

*(Bir qədər tərəddüddən sonra)*

Mən rayzıyam, hökmdar.
Ancaq bir şərtim var.

A r i a b a r z a n

Nədir o şərtin?
İzhar et anlayaq,
İstəyin nə?

Z ə r d ü ş t

Toxunma müridlərimə!
On illik zəhmətin bəhrəsi onlar!
Məzda işığının zərrəsi onlar!

A r i a b a r z a n

Deyirsən min illik dinimizi danaq!
Məzdaya inanaq!

Z ə r d ü ş t

Büt tanrıların gücü yox,
Bu daşların suçu yox.
Onları tanrıya bizik döndərən!

A r i a b a r z a n

Ey Zərdüşt, mən!
İnanmam dediyin bu nağıllara!
Get Banuya qıl çarə!

Z ə r d ü ş t

Ruhum azadsa da, qandallı qolum.
Əlon dağlarında gərək mən olum.
Banunun dərmanı yalnız orda.
Məzdanın ruhuyla mən o diyarda,
Edirəm söhbət.

A r i a b a r z a n

Zərdüşt get!
Azadsan bu gündən!

(İki sərbaz Zərdüştü aparır.)

A r i a b a r z a n

*(Vəzirə)*

O ən böyük düşmən!
Lakin mən onu buraxdım heyhat!

V ə z i r

Səbr et, şahım, səbr et,
Onu məhv eyləmək çox asan.
Görək nə göstərər bizə bu dövran.

6 - c ı   s ə h n ə

Ariabarzanın sarayı. Şah taxtda oturmuşdur. Şövqlə oxuyan xanəndənin səsinə qulaq asır və rəqs edən rəqqasə qızlara tamaşa edir. Bu vaxt Banu içəri daxil olur.

B a n u

Günaydın, hökmdarım.

A r i a b a r z a n

Günaydın, Banu.
Nə əcəb açılıb qaşın, qabağın,
Yoxsa, xoş xəbər var?

B a n u

*(Sevincək)*

Bəli, hömdar!
Əvvəl müjdəmi ver, sonra söylərəm!

A r i a b a r z a n

Müjdən hind yaqutu!

B a n u

Yaqutu neylərəm, zəri neylərəm!
Mənim mükafatım bunlardan üstün!

A r i a b a r z a n

Məndən nə istərsən, söylə bir görüm!
Bəlkə, sarayına süd arxı çəkim!
Bəlkə, sənə yeni bir saray tikim!

B a n u

Yox, hökmdarım, yox!
Gözüm bunlardan tox!

A r i a b a r z a n

Bilməm istəyin nə?
Bir taxt, tacım qaldı ki, verim sənə.

B a n u

Hökmdarım ən böyük möcüzə!
Tanrımız bir varis veribdir bizə!
Qoynumda hiss etdim bu gün onu mən!
Elə bil dünyaya gəldim təhzədən!
Mənim göz yaşlarım dayanmadı heç!

A r i a b a r z a n

Banu, bu gün mənim səadət günüm!
Banu, bu gün mənim səxavət günüm!
Bayram süfrələri açarıq bu gün!
«Haoma» şərabı içərik bu gün!
Qurban kəsəcəyik büt tanrılara!

B a n u

On il onlar qoydu məni biçarə!
Zərdüştün məlhəmi, Məzdanın ruhu!
Mənə kömək oldu, bil, ey hökmdar!
Güc, qüdrət Məzdada, bütdən nə çıxar!

A r i a b a r z a n

Həqiqət Zərdüştlə olsa da, Banu.
Yasaq etməliyik biz yenə onu.

Q u l a m

*(Daxil olaraq)*

Vəzirlə, baş kahin buyurmaq istər.

A r i a b a r z a n

Gəlsinlər.

(Banu gedir. Musiqi kəsilir. Rəqqasələr çəkilir.
Vəzirlə baş kahin daxil olaraq baş əyirlər.)

V ə z i r  v ə  b a ş  k a h i n

Xeyirli gün olsun, bu günün, ey şah.

A r i a b a r z a n

Şad xəbər almışam bu gün mən səhər!
Məni məst eyləyib xoş düşüncələr!
Bilirsinizmi, varisim olacaq!

Vəzir və kahin

*(Baxışaraq)*

Çox mübarək!
Çox mübarək!
Yüz illər yaşasın!
Tanrılar köməyi olsun!

Ariabarzan

Bir qasid göndərin Babil hökmdarına!
Bu xoş xəbəri yetirsin ona!

Vəzir

Bə çeşm, ey sərvər!
O gözəl müjdələr!
Alıb qayıdar!

Kahin

İzn ver, qibleyi aləm, bir ərzim var.

Ariabarzan

İzndəsən.

Kahin

Kahinlər üsyana çağırır xalqı.

Ariabarzan

Səbəb nə, istəkləri nə?

Kahin

Deyirlər Zərdüşt divanə,
Ruhunu satmış şeytana.
Gəzir müridləri şəhərbəşəhər,
Ahura Məzdanı təbliğ edirlər.

Ariabarzan

Vəzir, bu nə demək, bu necə xəbər!
Bütlərin qəzəbi bizi məhv edər!

V ə z i r

Bu doğru hökmdar.
Ya o birdəfəlik məhv olmalıdır,
Ya da məmləkətdən qovulmalıdır.

A r i a b a r z a n

Onu həbs eləyin, o tanrısıza!
Yalnız dar ağacı ən gözəl cəza!

7 - c i s ə h n ə

Zərdüşt həbsxana divarları arasında. Yarıqaranlıq bir otaq. Zərdüşt ayaq üstə otağın ortasında dayanmışdır.

Z ə r d ü ş t

*(Öz-özünə)*

Ya Məzda!
Yaxşılıq etdim ki, pis adamları,
Gətirim yaxşılar sırasına mən.
Faydası olmadı, çox qəribədir,
Mən dost əvəzinə qazandım düşmən.
Yaxşılıq itirib yaxşı adını.
Yalan, riya qurub öz büsatını.
Ən böyük qüdrət sənsən.
Əbədi həqiqət sənsən.
Ən böyük alim sənsən.
Ən böyük müəllim sən.
Mənə ümid ver, mənə yol göstər.
Qəflətdə bəşər.

(Birdən-birə Əhriman görünür.)

Ə h r i m a n

*(Zərdüştə tərəf gələrək gur səslə)*

Zərdüşt, bəşər mənim itaətimdə!
Sən özünə yan!
Sabah asılarsan dar ağacından!

Z ə r d ü ş t

Ümid qapıları həmişə açıq!
Qalibdir zülmətə həmişə işıq!

Ə h r i m a n

İşıq qalibdirsə, bir söylə mənə!
Bəs, bu axıdılan qanlar nədir, nə?!

Z ə r d ü ş t

Qanları tökən sənsən!

Ə h r i m a n

Mən oddan yarandım, sən güldən!
Tanrı üstün tutdu oddan torpağı!
Onunçün kəsildim tanrıya yağı!

Z ə r d ü ş t

Pislik sənin xislətində!
Sənin o div surətində!
Gah gözəl bir pərisən!
Gah çirkin bir qarı!
Sən rəzalət ruzgarı!

Ə h r i m a n

Ha, ha, ha, ha, ha, ha.
Sizin əzabınız nəşədir mənə!
Sizin fəryadınız ən gözəl nəğmə!

Z ə r d ü ş t

Biz öz sevgimizlə, ülfətimizlə!
Səni məhv edərik!

Ə h r i m a n

Ey başı bəlalar çəkən müdrik!
Öncə sən insan!
Fərqiniz yox vəhşi bir qurddan!
Didin bir-birinizi!

Al qana qəltan edin bir-birinizi!
Sonra da, sonra da lənətləyin şeytanı!
Ha, ha, ha, ha, ha...
Bəli, mən tanrı düşməni!

Z ə r d ü ş t

Sən bir qiyamçı, sənə tapınan kim?
Külli kainata bir tanrı hakim!

Ə h r i m a n

İmdad-imdad deyə, ey Zərdüşt, sən!
Qul kimi qarşımda sürünəcəksən!

(Qapı açılır. Əhriman yox olur. Banu içəri daxil olur. Əlindəki bağlamanı yerə qoyur.)

B a n u

Gəldim ki, ödəyim köhnə borcumu.
Bu sirri bilən kəs olmasın gərək.
Bir zaman etmişdin sən mənə kömək.

Z ə r d ü ş t

Kömək etmədim ki, köməyim üçün.
Tanrının əmriylə açıldı düyün.
Nəfsini öldürüb, özünü daim.
Bağışlayan kəslər əbədidir bil.
Yüz dibçək gülündən daha gözəldir.
Bülbülün eşqiylə saralan bir gül.

B a n u

Şah hərəmlərinə məhəbbət haram.
Burada sevgidən kim aldı ki, kam.
Burada dəbdədir saxta gülüşlər
Saxta ehtiraslar, saxta alqışlar.

Z ə r d ü ş t

Madam ki, beylədir, Banunu necə?
Sıxmırmı, üzmürmü bu zülmət gecə?

Doğrudur zülmətdə parlaq olur ay.
Ancaq o nurunu almış günəşdən.

B a n u

Ey Zərdüşt, sən!
Aldın mənimi məndən!
Mənim qollarımda qızıldan zəncir!
Qan olan ürəyim qanımı içir!
Bu qədər xeyirxah olmaq nə gərək!
Qəlbimin buzunu əritdin bişək!
Daha qərq oluram özüm-özümdə!
Daha yaş qalmayıb mənim gözümdə!
Tənhayam, yalqızam, bu gen dünyada!
Bircə pənahım var, o da, Məzda!

Z ə r d ü ş t

Məzdaya tapınanlar!
Kamil insanlar!
Çevirmə həyatı sən faciəyə!
Sənin qoynundakı məsum körpəyə,
Xoşbəxt tale qismət!

B a n u

(Həyəcanla, ehtirasla Zərdüştün əllərindən öpərək başını onun sinəsinə dayayaraq göz yaşı içində)

Ah, sən nə sehrkarsan!
Harda əzəmət var, sən orda varsan!
Harda məhəbbət var, sən orda varsan!
Açdın qəfəslərin qapısını sən!
Açdın məhbəslərin qapısını sən!
İçimi yandırar göz yaşı, naləm!
Eh, Zərdüşt, Zərdüşt... sevdim səni mən!

Z ə r d ü ş t

Sən məkr bilməyən gözəl bir mələk!
Sən xəzan görməyən süslü bir çiçək!
Əfsus ki, başqadır hökmü taleyin!
Əfsus ki, ayrıdır səmti küləyin!

B a n u

Sənin əlindədir, istəsən əgər!
Bir şərbətə dönər acı bir zəhər!

Z ə r d ü ş t

Mənim taleyimdə sonsuz iztirab!
Mənim taleyimdə bitməyən əzab!
Bəlaya aşina yazılmış, Banu!
Dərdlərə mübtəla yazılmış Banu!
Mən tanrı elçisi, səadətim də!
Yalnız bunda!

B a n u

Sən tanrı quluna gəl iltifat et!
Xaraba könlümü özün abad et!

Z ə r d ü ş t

Könlüm gövhər kanı, gövhər alan kim!
Cahillik dövründə qafillər hakim!
Sən qayıt saraya!
Unut birdəfəlik bu acıları!
Ulu tanrı sənə yar olsun barı!

B a n u

Özümdənmi qaçım, buna gücüm yox!

Z ə r d ü ş t

Öz körpəni düşün, sən özündən çox!

B a n u

Bir quş olub uzaqlara uçaydım kaş!
Əngin-əngin səmalarda
Qanadımı açaydım kaş!

(Ağlayaraq qapıya tərəf gedir və birdən geri qayıdaraq ağlar səslə)

Aç o bağlamanı, burdan xilas ol!

(Banu gedir.)

Z ə r d ü ş t

Dağ çəkdin sinəmə, ey sevdalı gül!

*(Üzünü göylərə tutaraq)*

Ey tanrım, hifz elə onu bəladan!
Riyakar qarıdır bu qoca dövran!

## 8 - c i  s ə h n ə

Şərqi İranda, Vorukəş dəryasının sahilində liman şəhəri. Artıq, Zərdüştün özünü Peyğəmbər elan etməsindən 25 il keçmişdir. Zərdüştün evi. Ev çox gözəl bəzədilmişdir. Peyğəmbər diz çökmüş halda üzü günçıxana dua edir.

Z ə r d ü ş t

*(Əlləri göyə açılmış)*

Şükürlər olsun ki, ey ulu tanrım!
Əzildi əjdaha səri yalanın!
Xalq sənə tapındı, qovuşdu haqqa!
Töküldü başına daş Əhrimanın!
Ya Məzda, bağışla günahkarları!
Getsin könlümün qubarı!

P o r u ç i s t a

*(Yan otaqdan daxil olaraq)*

Xeyirli sabahlar, baba.

Z ə r d ü ş t

Xeyirli sabahlar, mahi təbanım.
Xeyirli sabahlar, rühi rəvanım.

P o r u ç i s t a

Unutdun özünü, unutdun tamam.
Xörək bişirmişəm, gəl eylə təam.
Bu gün tamam on dörd yaşım.

Z ə r d ü ş t

Ay mənim sevimli məhəbbət quşum.
İllər nə tez keçdi, bilməmişəm heç.
Ömrümü səninçün bölməmişəm heç.
Sənin doğum günün mübarək, qızım.
Məndən istəyin nə, de görək, qızım.

(Onun alnından öpür.)

P o r u ç i s t a

İstəyim öyrənmək elmi, hikməti.
İstəyim anlamaq böyük qüdrəti.
Dözümün tükənsə, tabın mən olum.
Sən elmin şəhəri, qapın mən olum.

Z ə r d ü ş t

Beşikdən məzara öyrənməyən kəs.
Dünyada bir elm kəsb edə bilməz.
Sevgilər yüksəkdir öz əzabından
Çünki sevgi yaradan.

P o r u ç i s t a

Sevgi çox gözəldir, hicranı yoxsa
Sevgi çox gözəldir, əfqanı yoxsa.
Ömürə gətirər gah bahar, gah qış.
Sevginin badına getdi Səyavuş.

Z ə r d ü ş t

Ulu Məzda belə, bunu bil ki, sən,
Yaratdı insanı öz sevgisindən.
Ən gözəl surətlər torpaq olacaq,
Çiçəklər saralan yarpaq olacaq.
Bir dəfə Əhriman mənə söylədi,

Tanrının belə, var öz cəhənnəmi.
Əlbəttə bu onun
İnsanlara olan məhəbbətidir.

P o r u ç i s t a

Bəs, niyə bir halsız qocadan qabaq,
Hünərli bir cavan dünyadan gedir?

Z ə r d ü ş t

Bu hikmət xudanın,
Nizamı dünyanın,
Onun iradəsində.
Ancaq hər bir kəsin öz taleyi var.

(Qapı açılır, Medyumah içəri daxil olur.)

M e d y u m a h

*(Yaxınlaşaraq Zərdüştün əlini öpür.)*

Xeyirli sabahlar.

Z ə r d ü ş t

Xeyirli sabahlar.
Oğul, həsrətini çəkirdim yaman.
Bir aydan çox keçib getdiyin vaxtdan.

M e d y u m a h

Gəzdim addım-addım bütün İranı
Gəzdim vətənimiz Kiçik Midyanı.

P o r u ç i s t a

Nə gördün söylə,
Gördünmü uzaqdan bizim dağları,
Baxdınmı doyunca vətənə sarı.

M e d y u m a h

Beylə bir möcüzə görməyib dünya!
Həm şirin röyadır, həm acı röya!

Z ə r d ü ş t

Dünən röya sayılan bu gün həqiqət.
Dünən xülya sayılan bu gün həqiqət.

M e d y u m a h

Fələyin düyünü açıldı, baba!
Ahura Məzdaya tapındı İran!
Ancaq vətənimiz Kiçik Midyada!
Müridlər asılıb dar ağacından!

Z ə r d ü ş t

Nə şirin şərbətdir, nə acı zəhər!
Zərdüştə içirtdi dövran bu səhər!

P o r u ç i s t a

Bəs, anam, qardaşlarım!?
Onlardan nə xəbər!?

M e d y u m a h

*(Karıxaraq)*

Düzü bilmirəm!
Onları görməmişəm mən!

P o r u ç i s t a

*(Onun yaxasından yapışaraq qeyzlə)*

Necə sən onları görməmisən!
Səni lənətlədim mən!

M e d y u m a h

Qibləgahım, onlar yox artıq!
Onlar Məzda dərgahında!

P o r u ç i s t a

*(Onun sinəsini döyəcləyərək ağlar səslə)*

De ki, bu yalan, de ki, bu yalan!!!
Kim səni öyrədib, ey cahil isan!!!
Uzaq, gözümdən uzaq!!!

(Qaçıb atasına sığınaraq göz yaşı içində)

Qibləgahım, o alçaq!!!
Qov onu burdan, o sənə düşmən!!!

Z ə r d ü ş t

*(Onun başını sinəsinə sıxaraq)*

Dosta düşmən deyib eyləmə düşmən!
O ki, süd qardaşın sənin əzəldən!
And olsun Məzdanın ruhuna, qızım!
Günəş tək parlayar sənin ulduzun!

Z ə r d ü ş t

*(Darıxaraq)*

Əfv edin, Vorukəş dəryası çağırır məni!

(Zərdüşt qapıdan çıxır.)

M e d y u m a h

O göz yaşlarını gizlətmək üçün!
Tərk etdi səni!

P o r u ç i s t a

Sən Allah, bağışla, incimə məndən!
Möhnətdir qəlbimi belə inlədən!

*(Bərkdən ağlayaraq)*

Ana, əziz ana, ürəyim, qardaş!
Yaralı könlümün diləyi, qardaş!
Ya Məzda, ya Məzda, mənim suçum yox!
Bu dərdə dözməyə mənim gücüm yox!
Medyumah, bu külək haradan əsdi?
Bizim qapımızın yolunu kəsdi!

M e d y u m a h

*(Onun başını sinəsinə sıxaraq)*

Ağla, sevdalı gül, ağlasın ürək!
Görək tale bizə nə göstərəcək!

Ağla, gözlərinin heyranı olum!
Ağla, göz yaşının qurbanı olum!
Sənin eşqin verdi qol-qanad mənə!
Sənsiz gərək deyil bu həyat mənə!

Sükut.

9-cu səhnə

Şərqi İran. Qo şəhəri. Şahın sarayı. Şah Viştəasp taxtda oturmuş, vəzir Cəmasp ayaq üstə dayanmışdır.

Viştəasp

Deyirsən hind hökmdarı
Zərdüşti çağırmış öz sarayına.
Bunda nə məna?

Cəmasp

Bəli, bu doğru, hökmdarım,
Çünki Zərdüştə bəlli sirri xudanın.

Viştəasp

O bir kahinmi?
Ya yalançı bir münəccim?
Bəlkə bir sehrkar?
Bəlkə var onda tilsim?

Cəmasp

Xeyr, hökmdarım!
Deyirlər o tanrı elçisi.
Məzdanın dininə
Çağırır hər kəsi.

Viştəasp

Bəs, bütlərimiz?
Hind şahı Zərdüştün nəyinə aşiq?

C ə m a s p

Deyirlər Zərdüştün üzündə işıq.
Deyirlər ruhunda Məzda ruhu var.

V i ş t ə a s p

Sus, vəzir, etmə xəta!
Tanrıların elçisi yalnız biz hökmdarlar!

X u t a o s ə

*(İçəri daxil olur və şahın son sözlərini eşidərək)*

Bu doğru hökmdarım,
Sizin əmrinizdə, aləm.
Ancaq Zərdüşt elə möhtəşəm,
Elə böyük bir zəka.
Onun təbabətilə,
Mən gəldim bu dünyaya.

V i ş t ə a s p

Bu nədir, hərəmim də, vəzirim də,
Bağlı dini Zərdüştə?!

X u t a o s ə

Ey şah, mənim öz anam,
Bu dinə tapınan birinci qadın.

V i ş t ə a s p

Eyləsə, öz atan Ariabarzan.
Bəs, niyə Zərdüştə kəsmişdi edam?

X u t a o s ə

Yalnız kahinlərin qorxusundan.

C ə m a s p

Ey sərvər, bir zaman
Öz atam Böyük Müdrik də,
Tapınmışdı dini Zərdüştə.

V i ş t ə a s p

Deyəsən qəflətdə qalan bir mənəm.
Deyəsən bixəbər olan bir mənəm.
Siz mənim ən yaxın kəslərim,
İnandım mən sizə!
Şah sözü sözlərim!

X u t a o s ə

*(Sevincək)*

Mən bilirdim, sən ədalət kanı!
Adın fəth edəcək bütün dünyanı!

C ə m a s p

*(Sevinclə)*

Ey sahib fərmanım, ey xalqın gözü!
Sizi hifz eyləsin Məzdanın özü!

V i ş t ə a s p

Məzdanın qüdrəti sayəsində biz.
Sahib olacağıq İrana şəksiz.

(Bir az fasilədən sonra)

Vəzir, bəs, Zərdüşt indi harda?

C ə m a s p

Vorukəş dəryasında kuhi Harada.

V i ş t ə a s p

Tədbir gör saraya gətir sən onu,
Kiçik bir ölkənin böyük oğlunu.

C ə m a s p

Canım fəda olsun sənə hökmdar,
Əlbəttə bu işin bir çarəsi var,
İzinsə göndərim elçiləri mən.

V i ş t ə a s p

Ancaq unutma ki, Zərdüştün adı
Mənim şöhrətimi qaldırmalıdır.

(Vəzir gedir.)

X u t a o s ə

Sən görsən Zərdüştü dəyişər fikrin,
Özün də deyərsən mənə afərin.

(Şahın qızı Humaya daxil olur.)

H u m a y a

Günaydın, atayi mehriban.
Günaydın, anayi mehriban.

V i ş t ə a s p

Günaydın, peykərim
Günaydın, şəkkərim.
Sənin burda nə işin var?

H u m a y a

Taxtda oturanda qəzəbli olur şahlar.
Ancaq filosof belə deyib
Şahları şah edən ədalətidir.
Şahları şah edən səxavətidir.
Xalqına, elinə məhəbbətidir.
Döyüş meydanında dəyanətidir.
Şahın dostu olmaz, bunu bil, ey şah.
Kim sənə dost desə aldadır vallah.
Uca dağ başında qartal olmasan,
Bil ki, qarğalara yem olacaqsan.
Düzlüklə yolçu ol, uca dağlar aş.
Yalanı başına eyləmə şabaş.

V i ş t ə a s p

Hansı şairindir bu şer bilim.
Qiymətli incidir bu ki, ey gülüm.

X u t a o s ə

Peyğəmbər Zərdüştün kəlamlarıdır.
Faş olmuş cahana.

V i ş t ə a s p

Eşq olsun, beylə bir vicdana,
Ki, aynadır bütün həqiqətlərə.

H u m a y a

Hökmdarım, xudam bu peyğəmbərə
Hətta ulduzların sirrini vermiş.

V i ş t ə a s p

Madam ki, beylədir, qızım, bu gərdiş,
Güləcək üzünə bu peyğəmbərin.

X u t a o s ə

Xudam kömək olsun sənə, sərvərim!

H u m a y a

Afərin, afərin atam afərin!

(Atasını qucaqlayır.)

## 1 0 - c u   s ə h n ə

Şərqi İran. Vorukəş dəryasının sahilində liman şəhəri. Zərdüştün evi. Peyğəmbər otağın yuxarı başında üzü günəşə dua edir.

Z ə r d ü ş t

*(Əllərini göylərə açaraq)*

Ya Məzda, ruhuma bu dünya qəfəs.
Nə üçün insanlar düzlüyü sevməz.
Çəkdiyim acılar üzdü canımı,
Ən yaxın kəslərim tökdü qanımı.
Yaxşılıq eylədim, gördüm yamanlıq.
Ya Məzda, məhv olsun qoy bu qaranlıq.

Rahat gün yaşasın əkinçi, maldar,
Ya Məzda, bü qüdrət yalnız səndə var.

(Bayırda səs-küy qopur. Medyumah daxil olur.)

M e d y u m a h

Ya peyğəmbərim, bir Karvanbaşı
Səni görmək istər,
Deyir ki, gətirib mühüm bir xəbər.

Z ə r d ü ş t

Assür hökmdarı göndərmiş onu,
Mənə həm də bəlli bu işin sonu.

M e d y u m a h

Qurbanlıq qoyunla gəlib bu tacir,
Həm də gətiribdir çoxluca əncir.

Z ə r d ü ş t

Qoy gəlsin, qoy gəlsin, bu bir imtahan.
Toxum yaş olanda sınar dəyirman.

(Karvanbaşı daxil olur. Zərdüştün üzündəki işıqdan sarsılır
və çaşıb qalır. O, sanki qollarını gizlətmək istəyir.)

Z ə r d ü ş t

Xoş gəldin, mehmanım,
İstəyin, niyyətin bəllidir mənə,
Dəyişdi məramın, eşq olsun sənə.
Sən tacir deyilsən, quldurbaşısan
Məni də öldürmək sənə çox asan,
De, nədir saxlayan sənin əlini?

K a r v a n b a ş ı

Səni görən kimi sustaldı qolum!
Dəyişdi istəyim, dəyişdi yolum!
Nə qədər gücüm var, nə qədər sağam!
Tövbə qapısında yalvaracağam!

Z ə r d ü ş t

Əhsən məramına, əhsən, min əhsən!
Tələs ki, tələs ki, gecikməyəsən!

K a r v a n b a ş ı

Mən yumaqdan ötrü öz günahımı!
Hazıram çarmıxda görüm ruhumu!

Z ə r d ü ş t

Özünü öldürmək neçin?
Vicdan əzabından qurtulmaq üçün.
Sən tapın Məzdaya, əyil günəşə,
Tövbə qapıları açıq həmişə.

K a r v a n b a ş ı

*(Diz çöküb üzünü göylərə tutaraq)*

Tapındım mən sənə, ey böyük xuda!
Yalnız sənsən hakim qoca dünyada!

Z ə r d ü ş t

*(Onun qolundan tutub ayağa qaldıraraq)*

Azançım olarsan.
Sənin taleyində bu ucalıq var,
Səsindən açılsın qoy kar qulaqlar.

K a r v a n b a ş ı

Yox, peyğəmbərim, yox, əsla, yox!
Mənim günahlarım çox, lap çox!
Kəsdiyim sərlərin sayı bilinməz!

Z ə r d ü ş t

Ey karvanbaşı sus.
Sən atdın pisliyi, bu böyük hünər.
Məzdaya tapındın, bu böyük zəfər.
Müjdə alacaqsan bunun üçün bil.
Yaxşılıq etməyə tələs, ey qafil.

(Karvanbaşı çıxmaq istərkən qapı zərblə açılır.
Medyumah, bir sərəsgər və iki əsgər daxil olur. Medyumah
və karvanbaşı qılıncını siyirib onların qarşısını kəsir).

Z ə r d ü ş t

Dayanın, qan tökməyə yox bir ehtiyac!
Dərd varsa, o dərdə demək var əlac!

S ə r ə s g ə r

Böyük Ariabarzan!
Sənin ölümünə vermişdir fərman!
Mənim əsgərlərim sihur daşı tək!
Evini dövrəyə almışdır bişək!
Daha nicatın yox!

*(Əsgərlərə)*

Aparın onu!
Budur sərsəmlərin axırı, sonu!

(Zərdüştün üzündəki işıqdan sarsılmış əsgərlər tərpənmir.)

Karsınız nədir, kimdir sizi saxlayan?!
Yoxsa qiyam, yoxsa üsyan?!

Z ə r d ü ş t

Sənin ürəyinə girmiş Əhriman
Sarmış varlığını qaranlıq, duman
Qov öz gözlərindən qara zülməti
Hifz etsin ölümdən Məzda qüdrəti
Səni ey əsgər.

S ə r ə s g ə r

Dua etmə mənə!
Ölüm öz hökmünü oxumuş sənə!

(Sərəsgər irəli atılır, lakin Medyumah qılıncını
onun sinəsinə dayayır.)

Z ə r d ü ş t

Əl saxla Medyumah, toxunma ona!
Mənim düşmənim də xeyir-duam altında!

S ə r ə s g ə r

*(Çabalayaraq)*

Yox! Məni öldürün, bu daha yaxşı!

Z ə r d ü ş t

Yox, sən bir viranə bayquşu!
Onu buraxın getsin!

(Əsgərlər, Medyumah və karvanbaşı sərəsgəri aparırlar.)

Z ə r d ü ş t

*(Öz-özünə)*

Günahsız qanlardan doyubdu zəmin.
Qiymətli gövhəri insan aləmin.

M e d y u m a h

*(Daxil olaraq sevinclə)*

Pirimiz, xalq səni istər!
Gəl gedək, Medyumah, bu gözəl xəbər!

(Qapıdan çıxırlar.)

## 1 1 - c i   s ə h n ə

Şərqi İranda Qo şəhərində şahın sarayı. Şah Viştəasp hərəmi Xutaosə və qızı Humaya rəqqasələrin oyununa tamaşa edirlər. Xutaosənin üzündə həyəcan ifadəsi var.

H u m a y a

Anayi mehriban, səbrə ver qərar.
Üzdü səni intizar.

X u t a o s ə

Düşünməzdim belə möcüzə.
Yazılacaq qismətimizə.

V i ş t ə a s p

Əlbəttə, möcüzə, zaman ən böyük hakim,
Atan Ariabarzan onu məhv etməyə
Çalışdı daim.

X u t a o s ə

Atam zor timsalı, Zərdüşt elçisi haqqın.
Atama sonsuz nifrəti.
Zərdüştə ən böyük sevgisi xalqın.
Anam düşünərdi onu həmişə.

(Qulam daxil olur və baş əyir.)

Q u l a m

Hökmdarla görüşə
Zərdüşt, Cəmasp izn istər.

V i ş t ə a s p

*(Sevinclə)*

Gəlsinlər, gəlsinlər!

(Rəqqasələr çəkilir. Qulam çıxır. Zərdüşt öndə, arxasında Cəmasp və Poruçista daxil olurlar. Onlar baş əyirlər. Zərdüştün üzünün işığından şah özünü itirən kimi olur.)

C ə m a s p

*(Böyük nəşə ilə)*

Hökmdarım!
Tanrının elçisi hüzurunuzda!

V i ş t ə a s p

*(Özünə gələrək)*

Buyurun, buyurun, qoy böyük Məzda!
Özü rəvac versin belə ülfətə!

(Şah bir neçə addım qabağa ataraq Zərdüştə tərəf gəlir və ona əl verir. Zərdüşt şahın alnından öpür. Bütün məclisdəkilər görüşürlər.)

Z ə r d ü ş t

Bizi layiq bildin bu məhəbbətə.
Şahım minnətdaram sənə min kərə.
Belə qalib gəlir xeyir də şərə.

(Şah işarə ilə hamıya oturmaq təklifini edir və özü də taxtda oturur.)

V i ş t ə a s p

Ya Zərdüşt, qızın hərəmimə oxşar.
Bunda varmı bir gizli əsrar?

Z ə r d ü ş t

Bu sirri xuda.
Aşikarına yox ehtiyac əsla.

X u t a o s ə

Ey sahib fərman.
Yoğrulmuş mənim mayam.
Məzdanın ruhundan,
Zərdüştün zəkasından.

Z ə r d ü ş t

Ey şah, sizin sayənizdə.
Tanrının hikməti, dini Məzda
Çıxdı azadlığa dar məhbəslərdən.

V i ş t ə a s p

Varmı başqa arzun, başqa bir dilək?

Z ə r d ü ş t

Mən öz xoşbəxtliyimlə elə yaralanmışam.
Bütün zərərçəkənlər həkimim olsun gərək.

V i ş t ə a s p

Ya Cəmasp.

C ə m a s p .

Bəli hökmdarım.

V i ş t ə a s p

Məzdanın adına tikilən məbəd
Mənim şahlığıma versin qoy ziynət.

C ə m a s p

Bə çeşm hökmdarım.
Səxavət kanınız açıq həmişə
And olsun əbədi yanan günəşə.
Beylə bir səxavət görməmiş cahan,
Beylə bir dəyanət görməmiş dövran.

H u m a y a

Dua oxuyaram o məbəddə mən
Sevgili atamın mərhəmətindən.

X u t a o s ə

Mənim peyğəmbərim, tanrımız Məzda.
Səni layiq bildi ən yüksək ada.
Ən gizli məqamlar tək sənə bəlli
Ən sirli mizanlar tək sənə bəlli.

Z ə r d ü ş t

Qartal gur səsiylə göyə yüksəldi.
İnsan öz ağlıyla, iradəsiylə,
Keçilməz sədləri adlaya bildi.

V i ş t ə a s p

O hansı punhandır xəbərimiz yox?
O hansı məkandır xəbərimiz yox?

Z ə r d ü ş t

Punhanda punhandan xəbərsiz bəşər
Məkansız məkandan xəbərsiz bəşər.

V i ş t ə a s p

Uzaq nöqtələrdən sən bizə anlat,
Gözlərdən zülmətin pərdəsini at.

Z ə r d ü ş t

Doğru yol Məzdanın, böyük hökmdar,
Ona tapınmalı bütün insanlar.
Günəşi yaratdı bizim üçün o.
Atəşi yaratdı bizim üçün o.
Dəyərli gövhəri insan cahanın,
Bu hökm Məzdanın.

V i ş t ə a s p

Əzəldən qurulub bu dünya belə,
Kimisi hökmdar, kimisi kölə.

Z ə r d ü ş t

Köləyə məhəbbət göstərənləri,
Qullara mərhəmət göstərənləri,
Sevdi Məzda.
Yalnız özünə vurulanları,
Haqqın işığına kor olanları,
Sevmədi Məzda.

V i ş t ə a s p

Ya, Zərdüşt hər sözündə böyük hikmət,
Böyük məna.
Bəs, ən çox nəyi sevdi Məzda?

Z ə r d ü ş t

Ən çox sülhü sevdi, bu bəlli mənə,
Bir də insanların birliyini o,
Çox sevdi hökmdar.

V i ş t ə a s p

Eşq olsun sənə, eşq olsun sənə,
Ey pir, xəzinəndə nə qədər dürr var,
Nə qədər gövhər,
Payla biz aclara, yalavaclara.

X u t a o s ə

Şahim, bu nə demək, biz şah nəsliyik,
Biz hara, ac hara, yalavac hara?!

V i ş t ə a s p

Tacın parıltısı qəhr etdi bizi!
Taxtın parıltısı məhv etdi bizi!
Qırdı bir-birini İran şahları!
Taladı bizləri Turan şahları!

Z ə r d ü ş t

Bölünə-bölünə xırdalanların,
Sonu bir heçlikdir bu məlum sizə.

V i ş t ə a s p

Bu gün biz söykənsək iradəmizə,
Çökər önümüzə ən uca dağlar.
İran birləşməli, budur son qərar.

C ə m a s p

Məzdanın qüdrəti altında yalnız,
Bu mümkün hökmdar.

V i ş t ə a s p

Ya Zərdüşt!
Bizim karvanın sarıvanı ol, sən.
Tanrının yaxını, mehribanı sən.
Sən yol göstərən ol, biz qafillərə.
İranın dərdinə edək bir çarə.

Z ə r d ü ş t

Ey sərvər.
Bütün yaranmışların var iki adı, –
Xeyir və Şər.
Məzdanı sevənlərin
Böyükdür mükafatı.

Ə h r i m a n

*(Qəfildən peyda olur)*

Ey böyük hökmdar, ey sahib fərman!
Zərdüşt bir yalançı, inanma ona!
Aç öz gözlərini, bax asimana!
Baxsan da görməzsən, əsla heç nə!
Zərdüştün dediyi bir əfsanə!

V i ş t ə a s p

Sən kimsən, nəçisən, burda nə işin?

Ə h r i m a n

Ha, ha, ha, ha, kiməm?!
Bəs, dövrün, zamanın!
Bəs, bu gərdişin?!
Kimdir fərmandarı?!
Yalnız Mən!!!

Z ə r d ü ş t

Sən yalan, şər timsalı!
Sən zülmətlər yarasası Əhriman!

Ə h r i m a n

Bəli, mən Əhriman!
Mənim əsarətimdən!
Siz!
Heç zaman qurtula bilməyəcəksiz!

V i ş t ə a s p

Sən bir iblis ikən sənə tapınaq?!
Sən bir xəbis, bir şarlatan, sən bir alçaq!
Səpdiyin şər toxum cücərməz heç vaxt!

Ə h r i m a n

Bir gün tale, baxt!
Mənim hüzuruma gətirər səni!
Bax onda, bax onda, sən məni!
Yalvara-yalvara çağırarsan, şah!

V i ş t ə a s p

Rədd ol, gözlərimdən, rədd ol, ey alçaq!
Bizim pənahımız Məzdadır ancaq!

(Əhriman qapıda yox olur.)

Z ə r d ü ş t

Şükür yaradana, gəlmədən əcəl!
Haqqı aşikarda görmək nə gözəl!

*(Şahı qucaqlayır.)*

## 1 2 - c i   s ə h n ə

Qo şəhərində Ahura Məzdaya tikilmiş məbədin həyəti.
Poruçista yeni əkilmiş gülləri suvarır.
Bu vaxt Cəmasp daxil olur.

C ə m a s p

Günyadın, ey pəri!
Məni bir divanə, bir sərsəri!
Edən sən!

P o r u ç i s t a

Günaydın, ey ərən!

C ə m a s p

Yazdığım naməyə vermədin cavab!
Ürək qəfəsdə quş, gətirmədi tab!
Gəldim hüzuruna, ey mahi təban!
Üzdü varlığımı, üzdü bu hicran!

P o r u ç i s t a

Ürək bir xəzinə, beylə çox asan!
Açılsa qapısı, qalmaz bir nişan!
Pünhanda saxlanan gözəlliyindən!

C ə m a s p

Dost kim, düşmən kimdir, sevgi bilmədi!
Bəlkə bir tilsimdir sevgi, bilmədim!
Səni sevməyimdir bəxtiyarlığım!
Mənim varlığımda sənin varlığın!

P o r u ç i s t a

Sus, Cəmasp, sus, bağırma belə!
Yandırıb özünü döndərmə külə!

C ə m a s p

Şahları qul etdi, qulu hökmdar!
Budur sevgidəki gizli əsrar!
Sarayı at desən, ataram o an!
Sevgimə yox desən, bataram o an!

P o r u ç i s t a

Sarayı atmaqmı, bu kimə gərək.
Səni qaldırıbsa ucaya fələk.
Ordan atılmaqmı uçurumlara.

C ə m a s p

Ah, sənin yolunda çəkilim dara!
Hazıram ölümə o baxış üçün!
Yoxsa, ağlayımmı mən için-için?!
Onda sən!!!

P o r u ç i s t a

*(Onun sözünü kəsərək)*

Sevgi bir səadət, o diri ikən!
Nə üçün ağlamaq!

C ə m a s p

Yanmaq, yanmaq, odlarda yanmaq!
Mənim peşəm olmuş, ey nazlı nigar!
Düşün qolu bağlı əsir olanlar!
Nə istər Məzdadan!

(Cəmasp diz çökür, Poruçista tez onun əllərindən tutub qaldırır. Onların əlləri iç-içə qalır. Poruçista titrəyir.)

C ə m a s p

Nə üçün əllərin titrəyir gülüm!
Sənin həsrətinlə yaxıldı könlün!

P o r u ç i s t a

Ey Cəmasp!
Sən deyə bilirsən qəlbindəkini!
Mən səni... mən səni!!!

(Susur.)

C ə m a s p

Sevginmi bağlayıb sənin dilini!
Qoy öpüm, qoy öpüm titrək əlini!

(Cəmasp onun hər iki əlinin içini öpür.)

P o r u ç i s t a

*(Titrək səslə)*

Eh vay, əf et məni, ya Məzda!
Bu bir xəta, bu bir xəta!!!

C ə m a s p

Sevilmək xətamı, sevmək xətamı!
Özümü, özümü atım odamı?!
Ki, sən inanasan məhəbbətimə!

P o r u ç i s t a

Yox, Cəmasp, yox, inandım mən sənə!
İnandım o böyük ləyaqətinə!
Lakin məni heyrətə salan öz halım!

C ə m a s p

Nə olmuş, bir söylə!

P o r u ç i s t a

Yaralı quş kimi uçan xəyalım!
Çırpınır daşlara, qayalıqlara!
Dibsiz boşluqlara,
Sanki düşmüşəm!

C ə m a s p

Bu təlaş nə üçün, söylə, ey sənəm!
Mən səni sevirəm, qoy bilsin aləm!
Əgər cinayətsə səni sevməyim!
Özün cəzamı ver!

P o r u ç i s t a

Bil ki, Medyumahın böyük eşqinə
Bir cavab vermədim, illərlə susdum!
O da vüsalına qovuşmaq üçün!
Sonsuz əzablara illərlə dözdü!
Məni ağrıdan bu, öldürən budur!

C ə m a s p

Sən onu sevdinmi?!!

P o r u ç i s t a

Yalnız qardaş kimi!

C ə m a s p

Hansı gülü sevsə,
Könül bülbül kimi!
Onunçün oxuyar öz nəğməsini!

P o r u ç i s t a

Yox, yox!
Onu itirməkdən çox qorxuram çox!
Bu eşqin ucundan o ölsə əgər!
Bil, vicdan əzabı məni məhv edər!

C ə m a s p

O mənim dostumdur, könlündə sənin!
Yalnız birimizin yeri var, heyhat!
O günəş üzünü görməkdən ötrü!
Çəkir min sınağa bizi bu həyat!

P o r u ç i s t a

Mən səni sevirəm, o qan qardaşım!
Seçmək birinizi bu mümkün deyil!
Dəryalarda azan bir qayıq kimi!
Ürəyim heç yerdə bir sakin deyil!

C ə m a s p

Poruçista, sən bir mələk!
Beylə bir gözəllik görməmiş fələk!
Ya Məzda, bir anlıq səadət üçün!
Ömrümü sən girov almadın neçin!

P o r u ç i s t a

Dilədim xudadan bir gözəl dilək!
Görək tale bizə nə göstərəcək!

(Medyumah daxil olur və Poruçistanın son sözlərini eşidir.)

M e d y u m a h

*(Son dərəcə qəzəblə)*

Kor olan taleyim, nə görürəm nə!!!
Budurmu verdiyin mükafat mənə!!!
Çəkdiyim əzablar, acılar üçün!!!
Neçün dağılmayır, bu dünya neçün!!!

*(Qılıncını sıyıraraq)*

Bu qılınc ayırar, kim layiq sənə!!!

P o r u ç i s t a

Medyumah əl saxla tanrı eşqinə!

M e d y u m a h

*(Cəmaspın üstünə şığıyaraq)*

Güclüdə həqiqət, güclü olan kəs!
Meydanda qalacaq, yalvarma əbəs!

(Cəmasp qılıncını sıyırır. Onlar döyüşür. Poruçista məbədin içinə qaçır. Bir anlıq fasilədən sonra Zərdüşt və Poruçista məbəddən çıxır və onlara yaxınlaşırlar.)

Z ə r d ü ş t

*(Hiddətqarışıq həyəcanla)*

Əl saxla, ey Cəmasp, Medyumah dayan!
Sizin qılıncınız birləşən zaman!
Haqqın işığına qərq olar cahan!

Döyüş dayanır. Cəmasp və Medyumah peyğəmbərə baş əyirlər.

## 1 3 - c ü   s ə h n ə

Qo şəhərində şah sarayı. Şah Viştəasp Xutaosə və Cəmasp içəridə.

V i ş t ə a s p

*(Hiddətlə)*

Ya vəzir bağrımın başı söküldü!
Başıma dağların daşı töküldü!
Kuhi Səbalandan ağırdır bu dərd!
Çəkir varlığımı dara bu xəbər!

C ə m a s p

Ey sərvər, Ərcətasp uymuşdur şərə.
Biz bu müşkülə də taparıq çarə.

X u t a o s ə

*(Göz yaşı içində)*

Turanlı apardı qızımı əsir!
Necə ağlamayım söylə, ey vəzir!

V i ş t ə a s p

*(Kəskin)*

Ərcətasp sınasın qoy öz baxtını!
Başına çevirrəm onun taxtını!
Məni namərd kimi vurdu arxadan!
Yalnız cəng ilə, cəng ilə İran!
Turana bildirər onun həddini!

C ə m a s p

Ordumuz keçərsə Hun sərhəddini,
Ən böyük fəlakət başlar o zaman.

V i ş t ə a s p

Deyirsən, vaz keçək biz bu davadan?

X u t a o s ə

Ağzımda qovruldu zəbanım, ey şah!

*(Əllərini göylərə açaraq)*

Ya Məzda, mən sənə gətirdim pənah!
Özün köməyim ol, yetiş imdada!

V i ş t ə a s p

Turanı qalaram alova, oda!
Qızımı verməsə əgər Ərcətasp!
Budur son hesab!

(Qulam daxil olur.)

Q u l a m

Ey sərvər,
Mürşidimiz, pirimiz,
Zərdüşt buyurmaq istər.

V i ş t ə a s p

Buyursun o pir!
O parlaq zəka!
Bizi xəcalətli etdi, ya vəzir!

(Zərdüşt daxil olur. Şah və vəzir ona tərəf bir neçə addım ataraq baş əyirlər. Zərdüşt də baş əyir. Xutaosə Zərdüştün əlini öpür. Zərdüşt onun alnından öpür. Hamısı oturur.)

Z ə r d ü ş t

Xeyirli sabahlar!

V i ş t ə a s p

Xeyirli sabahlar!

Z ə r d ü ş t

Ərcətasp bütpərəst bir hökmdardır.
Onun nə imanı, nə dini vardır.
Humaya, Medyumah onun əsiri.
Ancaq bəlli mənə Xudanın sirri.

V i ş t ə a s p

Yəni Ərcətaspın məqsədi məlum?
Söylə, nə istəyir bizdən o məlun!

Z ə r d ü ş t

Mənim həyatımı.

X u t a o s ə

*(Həyəcanlı və təəccüblə)*

Necə, necə, tanrı elçisini istər Ərcətasp?!

V i ş t ə a s p

Xeyir! O, tezliklə alacaq cavab!
Vəzir, mən cəng dedim, sən söylədin yox!
Gördünmü, gördünmü başqa çarə yox!

Z ə r d ü ş t

Çarə olmasaydı bu işə əgər.
Şübhəsiz Turana edərdim səfər.

Nə Keyxosrov qalıb, nə Əfrasiyab,
Nə Rüstəmi Zal var, nə də ki, Söhrab.
Cəmşiddən yadigar qaldı bircə cam.
Onun da yerini bilmir bir insan.
Cəng çevirmədimi İran taxtını
Çəng devirmədimi Turan taxtını.
Məzda sülhü sevər.

V i ş t ə a s p

Ey pir, əzilməsə başı ilanın!
Mən rahat olmaram!

Z ə r d ü ş t

Ey şah, ol aram.
Könlün olsun şad,
Ərcətasp qızını eyləmiş azad.

X u t a o s ə

*(Sürəkli hərəkətlə ayağa qalxaraq Zərdüştün əllərini öpüşlərə qərq edir. Əllərini göylərə qaldıraraq)*

Ya Məzda, ya Məzda!!!
Bilirdim, sən məni qoymazsan darda!!!

V i ş t ə a s p

Mən heç anlamadım həbsi Turandan?!
Qızım azad olmuş beylə çox asan?!

Z ə r d ü ş t

Ərcətasp oynayır məkrli oyun!
Oxunu atsa da, gizlətmiş yayın!
Bir gözüm gülsə də, biri ağlayır!
Sinəmi Medyumah dərdi dağlayır!
Bir acı xəbər də aldım bu sabah!
Cəngdə həlak olmuş igid Medyumah!

V i ş t ə a s p

Belin əyilməsin, bu dərddən, ey pir!
Tanrının buyruğu sənə bəllidir!
Sənsən yol göstərən biz cahillərə!

(Onu qucaqlayır.)

X u t a o s ə

O qardaşım idi! O igid ərə!
Xudam özü versin behişti mənzil!

(Ağlayaraq Zərdüştə sarılır.)

C ə m a s p

Sən ey müdrik insan!
Əsdi başımızdan!
Bu qəfil tufan!

(Zərdüştü qucaqlayır.)

Z ə r d ü ş t

Sizə minnətdaram, ey övladlarım!
Sizsiz bu dünyada qol-qanadlarım!

V i ş t ə a s p

Ya vəzir!

C ə m a s p

Bəli, hökmdarım!

V i ş t ə a s p

Şəhid Medyumahın əziz ruhuna!
Dualar oxunsun qoy məmləkətdə!

C ə m a s p

Mənim hökmdarım, o şücaətdə!
Rüstəmi Zal idi bu məmləkətdə!

V i ş t ə a s p

Ey tanrı elçisi, sən də bir insan!
Olar ki, bu dərdi tez unudasan!
Bərzə Xarada Xudamız Məzda!
Səni layiq bildi ən yüksək ada!

Z ə r d ü ş t

Bəli, bu belədir.

Q u l a m

*(Daxil olaraq həyəcanla)*

Sevin, hökmdarım, xoş xəbər!
Qızınız qayıtmış!
Dəxi yanında var bir əsgər!

V i ş t ə a s p

*(Böyük sevinclə)*

Gəlsinlər, gəlsinlər!!!

(Hamı ayağa qalxır. Humaya və əsgər daxil olurlar. Humaya qapıya tərəf gələn anasını qucaqlayıb ağlayaraq)

H u m a y a

Anayi mahriban, çox gözlədim mən!
Xilas olunmağa yox idi güman!

X u t a o s ə

Sən idin Xudadan hər an diləyim!
Bu dərdə dözməzdi mənim ürəyim!

(Humaya anasından ayrılaraq atasını qucaqlayır, peyğəmbərin əlini öpür, peyğəmbər də onun alnından öpür. Humaya hamı ilə görüşəndən sonra Zərdüştə sığınır.)

H u m a y a

Ey tanrı elçisi, həbsi Turandan!
Məni xilas etdi bax, bu qəhrəman!

(Hamısı dönüb əsgərə baxır. Əsgər Zərdüştün işığında
özünü itirir və baxışlarını gizlətməyə çalışır.)

V i ş t ə a s p

Ey əsgər, söylə, görüm sən!
Hansı mükafatı dilərsən məndən!

(Əsgər susur.)

C ə m a s p

Ey sərvər!
Şərəfə, şöhrətə layiq bu əsgər!
Yaman itiribdir yazıq özünü!
Bəlkə də bir qorxu tutub gözünü!

H u m a y a

O Burak Rukrəşdir, sevimli ata!
Onun qorxduğu kəs yox, bu dünyada!
Sadəcə utanır, çəkinir bir az!

V i ş t ə a s p

Madam ki, sədaqət göstərdin bizə.
Madam ki, məhəbbət göstərdin bizə.
Burak Rukrəş səni elə bu gündən
Qoydum sarayıma keşikbaşı mən.

B u r a k   R u k r ə ş

Baş üstünə, hökmdarım!

Z ə r d ü ş t

Xoş gördük övladım, nə gözəl görüş,
Səni ucalara qaldırdı gərdiş.
Mən səni tanıdım, niyyətin aydın,
Gözündə qalmasın arzun, muradın.
Yolunu gözlədim on illər ilə,
Sən də gözləyərsən birini belə.

(Hamısı heyrət içində Zərdüştə baxır.)

## 14-cü səhnə

Qo şəhərində baş məbəd. İçəridə Burak Rukrəş diz çökmüş halda tanrıya dua edirmiş kimi görünür.

Burak Rukrəş

*(Öz-özünə)*

Beş ildir qəribəm bu yad diyarda.
Sirrimi içimə qısıb susmuşam.
İşıqdan gizləndim yarasalar tək,
Gecələr ovumu pusub susmuşam.
Mən bütpərəst ikən o tanrı dostu,
Mən bütləri sevdim, o sevdi odu.
Poruçista mənə vermədi könül.
Evləndi Cəmaspla yaşadı qoşa.
Bəlkə də həsrətin ey ətirli gül,
Mənim ürəyimi döndərdi daşa.
Zərdüşt bir düha ki, görməmiş cahan
Zərdüşt bir zəka ki, görməmiş zaman.
Onu öldürmədim, çəkindim yenə.
Ancaq Ərcətaspın yazdığı namə.
Məni sövq edir ki, tez bitsin bu iş.
Yoxsa, öz başımı yeyər bu gərdiş.
Şah xəbər gözləyir, çox intizarda
Deyəsən gələn o, gizlənim burda.

(Qapıya yaxın pərdənin arxasında gizlənir. Zərdüşt, Viştəasp, Cəmasp, bir qrup əyan, müridlər, keşikçilər içəri daxil olur. Zərdüşt qabaqda, qalanları da arxasında cərgə ilə duaya dayanırlar. Burak Rukrəş də pərdənin arxasından çıxıb onlara qoşulur və Zərdüştün arxasında dayanıb dua edir.)

Zərdüşt

*(Əllərini göyə açaraq)*

Ya Məzda!
Bu gün bayramıdır mülki İranın!
Bu gün bayramıdır Bərzə Xaranın!
İranın Cəmşidi bizim şahımız!

Vətənin güvənci son pənahımız!
Sənin bayrağını qaldırıb göyə!
Sənin haqq dinini bütün ölkəyə!
Yaydı düz söz ilə, düz əxlaq ilə!
Sən də ucalt onu bu bayraq ilə!

(Hamı amin deyir.)

Sən ey Ordibehişt, müqəddəs Aşi!
Sən ey uca Bəhmən, səadət quşu!
Gərsin qanadını məmləkətimdə!
Dostluq, barış olsun səltənətimdə!

(Amin.)

Bizim elimizə ver böyük qüdrət!
Elmi olmayan xalq ölüdür əlbət!
Bizim amalımız hamıya örnək!
Bu inam yolunda şərəflə ölmək!
Borcundan sən bizi məhrum eyləmə!

(Amin.)
(Peyğəmbər və bütün məclis səcdəyə gedərək, birlikdə)

Sən məni torpaqdan xəlq eyləmisən!
Ruhumu göylərə alsalar belə!
Sənin varlığına inam gətirdim!
Boynumu vurmalı olsalar belə!

B u r a k  R u k r ə ş

*(Kənara öz-özünə)*

Məqamdır, ey qorxaq kölə!
Beylə imkan düşməz ələ!

(Xəncəri peyğəmbərin kürəyinə endirir, peyğəmbər üzüüstə yıxılır, keşikçilər dərhal Burak Rukrəşi tuturular.)

V i ş t ə a s p

*(Həyəcanla)*

Tez olun, tez olun, qaldırın onu!

Peyğəmbəri qaldırırlar. Cəmasp yarıçömbəlmiş halda
sinəsini onun kürəyinə dayayır.

Z ə r d ü ş t

*(Gözlərini açaraq əzabla)*

Bu da sonu!

V i ş t ə a s p

Yox, yox, peyğəmbərim, sən sağalarsan!

Z ə r d ü ş t

Vaxtım az qalıbdır, buna yox imkan!

(Burak Rukrəşə işarə ilə)

Onu toxunmayın, buraxın azad!
Onu belə cəllad böyütmüş həyat!
Onu bağışladım, qoyun könlü şad!
Getsin öz yurduna, məmləkətinə!

V i ş t ə a s p

*(Qətiyyətlə)*

Mənim peyğəmbərim, o ki, bir cəllad!
Deyirsən buraxaq, getsin bu namrəd!

Z ə r d ü ş t

Buraxın övladım!

V i ş t ə a s p

Buraxın, o qatil rədd olub getsin!

Z ə r d ü ş t

*(Razı halda Burak Rukrəşə)*

Mən sənə demişdim!
Yolunu gözlədim on illər ilə!
Sən də birisini gözlərsən belə!

(Burak Rukrəş məbədi tərk edir.)

V i ş t ə a s p

Ax, getdi bu alçaq!
Elə bil sinəmə basıldı bir dağ!

Z ə r d ü ş t

Mənim övladlarım, dinləyin məni!
Dinləyin sonuncu vəsiyyətimi!
Açıb ağuşunu ruhuma göylər!
Haqqa qovuşan kəs fəryadmı edər!

V i ş t ə a s p

Məni düşündürən bu gerçək, bu sirr!
Bizdən ayrılmağa tələsdin, ey pir!

Z ə r d ü ş t

*(Nəfəsi kəsilə-kəsilə)*

Tanrının kitabı, «Avesta»nı mən!
Əmanət qoyaraq sizə gedirəm!
Onu gözünüz tək qoruyun, ey şah!

V i ş t ə a s p

Ey pirim, «Avesta» bizə səcdəgah!

Z ə r d ü ş t

Xudanın hökmüylə bu yer üzünə!
Daha üç səoşyant* peyğəmbər gələr!

İnsanlıq çıxacaq qaranlıqlardan!
Haqqın işığına bələnər bəşər!

(Özünü xəncərlə vuran Burak Rukrəş içəri daxil olaraq
Zərdüştün qabağında yerə sərilir.)

---

* səoşyant - xilaskar

Burak Rukrəş

*(Yalvarışla)*

Əfv et, qibləgahım, keç günahımdan!
Özüm öz cəzamı verdim, of, aman!!!

(Ölür.)

Zərdüşt

Tanrı dərgahına gedirəm rahət!
Onu dəfn eyləyin olsun ruhu şad!

(Ölür.)

Əhriman

*(Məbədin qapısında peyda olaraq)*

Ey Zərdüşt, mən Əhriman!!!
Sən mənə qalib isan!!!

(Hamı heyrət içində Əhrimana baxır.)

Pərdə

Sonu

*1998–2001*